

# ZƏR QƏDRİ

**Zərgərlik sənətinin tarixi qədim, xəritəsi əhatəli, "tərcümeyi - halı" olduqca mürəkkəbdir. Qızıl - gümüş, daş - qaş insanlara sevinc - fərəh də gətirib, qəm - kədərə də düçar edib. Cəmiyyətdə yüksək mövqe, firavanlıq da bəxş edib, münaqişələrə, çəkişmələrə, hətta ölümə də bais olub.**

Onlar sərvət hesab olunur, insanlar xoşbəxtliyin də, təzadlı olsa da, bədbəxtliyin də səbəbini elə onda görürlər. Nəsillərdən - nəsillərə, əldən - ələ, ölkədən - ölkəyə adlayan, sərhəd, zaman bilməyən, irq, millət fərqi tanımayan zərgərlik nümunələri insanların həyatında, taleyində olduqca mühüm rol oynayıb. Onu əldə etmək, ona sahib olmaq üçün "dəridən - qabıqdan" çıxır, bəzən isə əksinə "qızıl teşt"dən imtina da edilir...

Bəşəriyyət tarixində insanları maraqlandıran məsələlərdən biri də daşlar və onların rəngarəngliyi olmuşdur. "Əfsanəvi daşlar" haqqında 200-ə qədər müxtəlif həcmli kitablar yazılaraq nəşr edilmişdir. Qiymətli metallar, daş-qaşlar haqqında Əbu-Reyhan Məhəmməd ibn-Əhməd əl-Biruni (XI əsr) ("Cəvahirnamə"), Məhəmməd Nəsirəddin Tusi (XIII əsr) ("Cəvahirnamə"), Əbu-Əl Fəzl Hübeyşi ibn-İbrahim Tiflisi (XII əsr) ("Bəyan-əs-sənət"), Əbu-Əli ibn-Sina (XI əsr) ("Tibb elmi qanunları"), Zəkəriyyə Qəznəvi (XIV əsr) ("Cəvahirnamə") və Şərqin bir çox digər görkəmli alim və sənətkarları məlumat vermişlər. Əbu Nəsr əl-Ütbi (X əsr) özünün "Kitab əl-Yamini" kitabında qeyd etmişdir ki, kəhrəba öz cazibə qüvvəsi ilə yerə düşən saman çöpünü qaldıra bilir.

Zərgərlik sənətində istifadə olunan qiymətli metal və daşların zahiri, estetik gözəlliyi ilə bərabər, insan orqanizmi üçün faydalı xüsusiyyətlərindən, xəstəliklərə qarşı mübarizədə istifadə qaydalarından danışan bu və digər mənbələr bir daha göstərir ki, xalq sənətkarları yüksək zövq və ustalıq tələb edən bu sahəyə çox ciddi yanaşmışlar. Zərgərlik sənətinin inceliklərinə bələd olduqca, məlum olur ki, bu sahə özündə xalqın inam və inanclarını da yaşadır.

Qiymətli daşlar, zərgərlik nümunələri haqda əfsanələrdə, nağıl və rəvayətlərdə də danışılır, onlar bəzən hadisələrin mərkəzində olur, bəzən isə az qala baş qəhrəmana çevrilirlər.

Qiymətli daş-qaşlar, zərgərlik nümunələri bir ölkədən digərinə müxtəlif yollarla - diplomatik münasibətlər, müharibələr, ticarət vasitəsilə keçirdi. Bəzi hallarda yeni sahibkar əşyanın üzərindəki yazıların mənasını anlamadan onun sehrli, möcüzəli bir qüvvəyə qadir olmasını sanırdı.

Daşların dəyəri onun növü və rəngi ilə müəyyən edilir. Bənövşəyi və al qırmızı daşlara təbiətdə az rast gəlinir. Ona görə də yaqut, ləl həmişə yüksək qiymətləndirilir. Lakin qonur rəngli , qızıla çalan açıq qırmızı rəngli daşlar geniş yayılıb.

Orta əsr alimləri müxtəlif təcrübələr apararkən məlum oldu ki, qapalı qablarda "ən isti alovda " yandırılan qırmızı yaqut heç bir dəyişikliyə məruz qalmır, almaz isə tamamilə yanır.

6000 mərcan növü mövcuddur. Dənizin dərinliklərində ağac kimi böyüyüb inkişaf edən mərcanın tərkibində yod var. Qeyri-şəffaf mərcanlar qırmızı, narıncı, ağ, çəhrayı rəngdə də olurlar.

Çox qədim zamanlarda Yaponiya və Çin sənətkarları dağ büllurunu şar formasında yonurdular. Dövlətli adamlar çox isti havada əllərini həmin şarın üzərinə qoyaraq sərinlənirdilər. Yaponların inanclarına görə, mirvari - sağlamlığın, xoşbəxtliyin, uzun ömürlülüyün və məhəbbətin rəmzidir. Qiymətli daşlar bəzən müəyyən peşələrin də rəmzi ola bilirdi. Məsələn, qiymətli daşlarla zəngin olan Braziliyada ötən əsrdə belə bir adət mövcud idi: həkimlər - zümrüd qaşlı, hüquqşünaslar - yaqut qaşlı, hərbi mühəndis - firuzə qaşlı, adi vətəndaşlar - sapfir qaşlı üzük taxmalı idi. Rusiyada teatr aktyorları firuzə qaşlı üzük taxırdılar. Bu ənənəni bilən A.N.Ostrovski Rıjovlar ailəsinə firuzə qaşlı üzük bağışlamışdı və bu üzük çox qiymətli yadigar kimi nəsillərdən - nəsillərə təbərrik tək qorunub saxlanılır. Qraf Menşikov hər yeni rütbə, ad qazandıqca zərgərinə göstəriş verirdi ki, qılıncının üzərindəki bəzəklərin sırasına həmin rütbənin rəmzi ola

biləcək qiymətli daş əlavə edilsin.

Qədim Hindistanda hər bir tayfa, hətta hər bir silk yalnız onun özünəməxsus rəngdə almaz taxa bilərdi. Başçılar - şəffaf almaz, hərbiçilər - çəhrayı almaz, torpaq sahibləri - sarı almaz qaşlı üzük gəzdirirdilər. Çinlilər üçün nefrit - hakimiyyət rəmzi olmuşdur. Məmurların papağındakı daşın ölçüsü və rəngi onun rütbəsini göstərirdi. Hətta məmurların xanımları da ərlərinin tutduğu mövqeyini əks etdirən zinət əşyaları taxmalı idilər.

XII - XIII əsrlərin qovşağında yaşamış İngiltərə hökmdarı özünə firuzədən üzük hazırlatdırmışdı. O, hesab edirdi ki, firuzə insanı gələcək xəstəliklərdən, xəta - bəladan xəbərdar edir, hətta insanın bədənində hərarətin qalxıb-endiyini bildirir: bu zaman firuzənin rəngi dəyişir.

XVI əsrdə İngiltərədə əqiq daşı yüksək qiymətləndirilirdi. Onlar hesab edirdilər ki, əqiqin doqquz xüsusiyyəti var və o insanı tufandan, şər qüvvədən, şeytanın əməlindən, ilanın çalmasından, müxtəlif xəstəliklərdən və əlbəttə ki, gözdəymədən qoruyur.

Avropada əsərləri çox böyük maraqla oxunan məşhur yazıçı Valter Skott 1829-cu ildə özünün "Anna Qeyerşteyn" romanını nəşr etdirir. Əsərin baş qəhrəmanı daima saçlarında opal daşlardan ibarət bəzək gəzdirərmiş və onun qəfil, müəmmalı ölümü həmin bəzəklə əlaqələndirilirdi. Bir çox Avropa dillərinə tərcümə edilib sürətlə yayılan bu roman gözlənilməyən bir nəticə verdi: qadınlar opal daşlardan tamamilə imtina etdilər. Bu daşa qarşı mənfi münasibəti hətta İngiltərə şahzadəsi Viktoriyanın atdığı addım: nümayişkaranə şəkildə Avstraliya opalından hazırlanmış bəzəkləri taxması da dəyişdirə bilmədi. İranlılar müşahidə edərək belə nəticəyə gəlmişlər ki, firuzə üzərində əmələ gələn yaşıl ləkələr firuzənin xəstəliyidir, rənginin tutqunlaşması isə onun ölümüdür. Firuzə qaşlı üzüklə əl yumaq məsləhət deyil.

Avropaya (Yunanıstana) almazlar ilk dəfə Makedoniyalı İsgəndərin (e.ə. IV əsr) Şərqə yürüşündən sonra gətirilmişdir. Almaz ərəb dilində al - maz (çox möhkəm) deməkdir.

İvan Qroznıy isə sapfiri çox xoşlayırdı və deyirdi ki, bu daş könlümü açır, mənim ruhumu sevindirir. Elə göz üçün də xeyirlidir.

Qədim Romanın böyük sərkərdəsi və natiqi Yuli Sezar ilk dəfə tacını qızıl və qiymətli daş - qaşlarla bəzəyərək teatra gəlmişdi.

II Yekaterina deyirdi: "Brilyiantlarla oynamaq çox maraqlıdır, bu 1001 gecəni xatırladır".

Kəhrəba farsca "kahrulay" - yəni özünə cəlb edən deməkdir. İlkin olaraq ağacın şirə qətranından əmələ gəlib uzun müddət gil içərisində və su altında qaldıqda kəhrəbaya çevrilən bu daş daima dəbdədir: həm zinət, həm də məişət əşyalarının hazırlanmasında ondan istifadə olunur.

Hind alimlərinin fikrincə, hər kəs yaqutu özü ilə gəzdirsə, taun xəstəliyindən qorunar. Ağızda saxlanılsa, ürəyi qüvvətləndirib insandan qəm və kədəri uzaqlaşdırar, susuzluğu dəf edər, gözün işığını artırar. Firuzə farsca "fariz" sözündən olub qalib deməkdir. Üzərində firuzə qaş olan düşmənə qalib gələr. Padşahlar onu çox əziz tutardılar. Təsadüfi deyil ki, müharibələr iştirakçısı kişilərin silahları - qılınc, xəncər, qalxan, həmçinin belindəki kəmər üzərində mütləq firuzə qaşdan istifadə olunurdu. Firuzə tozu hətta insanı ilan çalmasından sağaldır.

Özü ilə almaz gəzdirən adam vahiməli yuxular görmür, sakitləşir, rahat yatır, zəhərli ilanlardan qorunur. Təmiz və zərif yaşıl rəngli zümrüdə səhərlər nəzər salanın həmin günü işi yüngül olur. Yanında zümrüd gəzdirən pis yuxu görməz, qanaxma və ishal xəstəliklərinin müalicəsində xeyri var, ürəyi sağlam olar. Guya ilanla zəhərlənəni yalnız zümrüd tozu ilə müalicə etmək mümkündür. Müxtəlif rəngli əqiq gəzdirənlər düşmənlərdən qorxmur, zəlzələ zamanı təhlükədən xilas olurlar. Yaşıl, tutqun oniks sahibini oddan hifz edir, dəlilikdən qoruyur. Nefrit daşı ildırımdan qoruyur.

Ay daşını dilin altına qoyub insanların gələcəyindən xəbər verirdilər. Guya bu daş ayla qeyri - adi əlaqəyə malikdir, çünki təzə ay doğanda o soyuyur və açıq şölələnir. Ləl ürək döyünməsinin dərmanıdır.

Serdolik - əqiq günəşin rəmzi hesab olunur və inanca görə insanı bədxah qüvvələrdən qoruyur. Onu "xoşbəxtlik daşı" da adlandırırlar. Ametist - sədaqət rəmzidir. Hələ qədim zamanlarda ər, yaxud arvad bivaxt dünyasını dəyişəndə, vəfalı həyat yoldaşı ametist daşdan hazırlanmış üzük, medalyon və s. gəzdirərdi.

Mirvarinin parıltısı onun sahibinin ovqatından çox asılıdır: o necə deyərlər sahibi ilə bərabər sevinir və kədərlənir. Sahibinin ölümündən sonra o da öz gözəlliyini itirir, tutqunlaşır. Əgər mirvarinin sahibi hələ sağ ikən onu kimə isə versə, mirvari həyatını yaşamaqda davam edər. Mirvari xoşlayır ki, onu gəzdirsinlər - yəni sahibi ilə ünsiyyətdən daha parlaq olur. Mirvarini "gəncləşdirməyin" çox qədim bir üsulu da mövcuddur: mirvarini xoruz, yaxud qaza yedizdirir, müəyyən bir vaxtdan sonra o quşu kəsirlər. Quşun mədəsindən çıxarılmış mirvari ilkin gözəllik və parlaqlığını kəsb etmiş olur. Mirvari tozu göz xəstəliklərini götürür.

Daşların estetik görkəminin, həmçinin insanların daşların müalicəvi, yaxud taleyüklü təsiri haqqındakı inancları, onların insanın ruhi vəziyyətinə necə təsir göstərməsi əsl tədqiqat mövzusudur.

**● Elmira QASIMOVA**